# Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin

# tətbiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar həmin Məcəllənin tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Məcəlləyə uyğunlaşdırılmasını təmin etsin və bu Barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

həmin Məcəllənin pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Məcəllənin 4.1-ci, 4.2-ci, 5.1-ci, 5.2-ci, 8.2-ci, 12.1-ci, 13.2-ci, 18.2-ci, 20-ci, 25.1-ci, 27.2-ci, 29.2-ci, 30.3.1-ci, 44.4-cü, 61.3-cü, 67.3-cü, 68-cü, 89.1-ci, 89.2-ci, 265.4-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı» barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsindən irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki,

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 2.5-ci, 16.3-cü maddələrində, 26.5-ci maddəsində (ikinci halda), 42.2-ci, 43-cü, 44.1-ci, 47.2-ci, 61.2-ci, 62.1.11-ci, 67.1-ci və 142.2-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir; [1]

həmin Məcəllənin 4.3-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir;

həmin Məcəllənin 14.2-ci və 22.4-cü maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərinin Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi həyata keçirir; [2]

həmin Məcəllənin 18.3-cü, 22.5-ci və 45-ci maddələrində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

həmin Məcəllənin 83.4-cü maddəsində «müvafiq icra hakimiyyəti orqanı» dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi başa düşülür.

həmin Məcəllənin 28.4-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;[3]

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 19 iyul 2001-ci il
№ 541

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 7 fevral 2005-ci il tarixli 193 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 2, maddə 69**)
2. 28 dekabr 2006-cı il tarixli 506 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1053**)
3. 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 601**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 28 dekabr 2006-cı il tarixli 506 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1053**) ilə 2-ci bəndinin ikinci abzasında “16.3- cü, 26.5-ci” rəqəmləri “16.3-cü maddələrində, 26.5-ci maddəsində (ikinci halda)” sözləri ilə əvəz edilmişdir.

[2] 7 fevral 2005-ci il tarixli 193 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 2, maddə 69**) ilə 2-ci bəndin dördüncü abzasında "**Rabitə Nazirliyi**" sözləri "**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[3] 14 iyun 2007-ci il tarixli 588 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 601**) ilə 2-ci bəndinə yeddinci abzas əlavə edilmişdir.